**UDC:** 1(091)
**LBC:** 87.3(4\8); 60.03
**MJ №** 248
10.33864/2617-751X.2024.v7.i4.213-226

# The Place and Role of Ali Bey Huseynzade in the History of Modern Azerbaijani Social-Philosophical Thought

**Sevinj Misirkhanova***

**Abstract.** Ali Bey Huseynzade, one of the prominent representatives of Azerbaijan's literary, cultural, social-political, and philosophical thought in the 20th century, was the first publisher of the political-Turkism movement in Azerbaijan. He was a distinguished political figure, talented scientist, thinker, and publicist, and holds a unique place in the history of the Azerbaijani people. Over time, there is an increasing need to deeply comprehend and study the magnificent artistic works created by Ali Bey Huseynzade. Throughout his life, Huseynzade dedicated his prolific writing to the research and promotion of pan-Turkish spiritual values, fighting with all the strength of his brilliant talent for the progress of the Turkic people. He played an important role in the formation of the theoretical-philosophical foundations of the Azerbaijani national idea, striving for reforms in public and cultural life and artistic consciousness through his rich creative output. With his famous "Threefold Formula"-"Turkification, Islamization, Modernization" - he contributed to the formation of the ideology of Azerbaijanism. He advocated for the necessity of abandoning sectarian divisions and uniting all Muslims under the umbrella of a single religion-Islam. In his article titled "What is Young Turkism?", he explained the essence of the Turkish reform movement and expressed his views in many articles published in newspapers and magazines, arguing that Ottoman Turkish should become the common language of all Turks. Having spent more than 30 years of his life in exile, Ali Bey’s complex and turbulent life path was marked by political and cultural struggles aimed at the unity and wholeness of the Turkic world. The article emphasizes the significance of national-democratic values, highly relevant today, and their reflection in Azerbaijani philosophy and social-political thought. It also highlights the necessity of the establishment of the Azerbaijan Democratic Republic as the first historical embodiment of the national-democratic statehood ideology, which began in the early 20th century. Ali Bey Huseynzade’s multifaceted activities and his intellectual contributions, not only for Azerbaijani Turks but for the entire Turkic world, affirm the relevance of the subject as he remains a valuable thinker on a broader scale.

**Keywords:** Ali bey Huseynzade, triple formula, Turkism, "Fuyuzat"

---

* Teacher of Baku State University; Baku, Azerbaijan
E-mail: seva.sexavet2011@gmail.com
https://orcid.org/0009-0004-5594-4487

**To cite this article:** Misirkhanova, S. [2024]. The Place and Role of Ali Bey Huseynzade in the History of Modern Azerbaijani Social-Philosophical Thought. *“Metafizika” journal, 7(4),* pp.213-226.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i4.213-226

**Article history:**
*Received: 24.08.2024*
*Accepted: 04.10.2024*

**УДК:** 1(091)
**ББК:** 87.3(4\8); 60.03
**MJ №** 248
10.33864/2617-751X.2024.v7.i4.213-226

# Место и Роль Али Бея Гусейнзаде в Истории Современной Азербайджанской Общественно-Философской Мысли

**Севиндж Мисирханова***

**Абстракт.** Али бей Гусейнзаде, один из выдающихся представителей литературно-культурной, общественно-политической и философской мысли Азербайджана XX века, был первым издателем движения политического тюркизма в Азербайджане, видным политическим деятелем, талантливым ученым, мыслителем и публицистом, занявшим особое место в истории азербайджанского народа. С течением времени возникает все большая необходимость в глубоком осмыслении и изучении величественных произведений, созданных Али беем Гусейнзаде. На протяжении всей своей жизни Али бей Гусейнзаде с помощью своего плодотворного пера исследовал и пропагандировал общетюркские духовные ценности, сражаясь за прогресс тюрков всеми силами своего блестящего таланта. Его творчество сыграло важную роль в формировании теоретико-философских основ азербайджанской национальной идеи. Али бей Гусейнзаде пытался провести реформы в общественно-культурной жизни и художественном сознании, выступив с «тройной формулой» - «тюркизироваться, исламизироваться, модернизироваться», что способствовало формированию идеологии азербайджанизма. Он считал необходимым освободиться от различных религиозных течений и объединить всех мусульман вокруг одной религии - ислама. В своей статье «Что такое молодой тюркизм?» он раскрыл суть движения реформ младотурков, а в ряде статей, опубликованных в газетах и журналах, высказывал свои мысли о том, что османский турецкий язык должен стать общим языком всех тюрков. Али бей Гусейнзаде провел более 30 лет своей жизни в эмиграции. Его сложный и многогранный жизненный путь был связан с политической и культурной борьбой, направленной на единство и целостность тюркского мира. В статье подчеркивается необходимость создания Азербайджанской Демократической Республики как исторического воплощения национально-демократической государственной идеологии, начавшей формироваться с начала XX века. Это основывается на важных фактах, отражающих национально-демократические ценности, их влияние на азербайджанскую философию и общественно-политическую мысль, что делает их чрезвычайно актуальными и для наших дней. Разносторонняя деятельность Али бея Гусейнзаде подтверждает актуальность темы его исследования не только для азербайджанских турок, но и для всего Тюркского мира, как ценного мыслителя.

**Ключевые слова:** Али бек Гусейнзаде, тройная формула, тюркизм, “Фуюзат”

---

* Преподаватель Бакинского Государственного Университета; Баку, Азербайджан
E-mail: seva.sexavet2011@gmail.com
https://orcid.org/0009-0004-5594-4487

**Цитировать статью:** Мисирханова, С. [2024]. Место и Роль Али Бея Гусейнзаде в Истории Современной Азербайджанской Общественно-Философской Мысли. *Журнал «Metafizika», 7(4),* с.213-226.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i4.213-226

***История статьи:***
*Статья поступила в редакцию: 24.08.2024*
*Отправлена на доработку: 26.09.2024*
*Принята для печати: 04.10.2024*

**UOT:** 1(091)
**KBT:** 87.3(4\8); 60.03
**MJ №** 248
10.33864/2617-751X.2024.v7.i4.213-226

# Müasir Azərbaycan İctimai-Fəlsəfi Fikir Tarixində Əli Bəy Hüseynzadənin Yeri və Rolu

**Sevinc Misirxanova***

**Abstrakt.** XX yüzillikdə Azərbaycanın ədəbi-mədəni, ictimai-siyasi və fəlsəfi fikrinin görkəmli nümayəndələrindən biri olan, siyasi-türkçülük hərəkatının Azərbaycanda ilk naşiri Əli bəy Hüseynzadə görkəmli siyasi xadim, istedadlı alim, mütəfəkkir, publisist kimi fəaliyyət göstəmiş, Azərbaycan xalqının tarixində özünəməxsus yer tutmuşdur. Zaman keçdikcə Əli bəy Hüseynzadənin yaratdığı möhtəşəm sənət incilərini dərindən dərk etməyə, öyrənməyə daha böyük ehtiyac duyulur. Ə.Hüseynzadə bütün ömrü boyu öz məhsuldar qələmi ilə ümumtürk mənəvi dəyərlərini tədqiq və təbliğ etmiş, türkün tərəqqisi naminə öz parlaq istedadının bütün gücü ilə çarpışmışdır. Azərbaycan milli ideyasının nəzəri-fəlsəfi əsaslarının formalaşmasında mühim rolu olan Əli bəy Hüseynzadə zəngin yaradıcılığı ilə ictimai-mədəni həyatda, bədii şüurda islahatçılıq aparmağa çalışmış, “Türkləşmək, islamlaşmaq, müasirləşmək” “üçlü düsturu” ilə çıxış edərək azərbaycançılıq ideologiyasının formalaşmasına təkan vermiş, ayrı-ayrı məzhəblərdən qurtulmağı, bütün müsəlmanların bir din - islam dini ətrafında birləşməsini zəruri görmüş, Gənc türkçülük nədir?" adlı məqaləsi ilə türk tənzimat hərəkatının mahiyyətini açıqlamış, Osmanlı türkcəsinin bütün türklərin ortaq dili olması mövzusu ətrafında fikirlərini qəzet və jurnallarda çap olunan bir çox məqalələrində bildirmişdir. Həyatının 30 ildən artıq bir dövrünü mühacirətdə keçirmiş Əli bəyin mürəkkəb və keşməkeşli həyat yolu türk dünyasının birliyinə, bütövlüyünə yönəlmiş siyasi-mədəni mübarizələrlə keçmişdir. Məqalədə günümüz üçün olduqca önəmli olan milli-demokratik dəyərlər, onların Azərbaycan fəlsəfəsi və ictimai-siyasi fikrindəki inikası baxımından əhəmiyyətli faktlar əsasında təşəkkülü, XX əsrin əvvəllərindən başlanan milli-demokratik dövlətçilik ideologiyasının ilk tarixi təcəssümü olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının zəruriliyi vurğulanır. Çoxşaxəli fəaliyyəti ilə Əli bəy Hüseynzadə fəaiiyyəti və yaradıcılığının yalnız Azərbaycan türkləri üçün deyil, bütün Türk Dünyası miqyasında dəyərli bir mütəfəkkir kimi araşdırılması mövzunun aktuallığını təsdiqləyir.

**Açar sözlər:** Əli bəy Hüseynzadə, üçlü düstur, türkçülük, “Füyuzat”

* Bakı Dövlət Universitetinin müəllimi; Bakı, Azərbaycan
E-mail: seva.sexavet2011@gmail.com
https://orcid.org/0009-0004-5594-4487

**Məqaləyə istinad:** Misirxanova, S. [2024] Müasir Azərbaycan İctimai-Fəlsəfi Fikir Tarixində Əli Bəy Hüseynzadənin Yeri və Rolu. *“Metafizika” jurnalı, 7(4),* səh.213-226.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i4.213-226

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 24.08.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 26.09.2024*
*Çapa qəbul edilmişdir: 04.10.2024*

## 1.Giriş

XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan milli oyanış hərəkatının mühüm mərhələsini təşkil edir. Bu elə bir dövr idi ki, Azərbaycanda milli sahibkarlığın yeni-yeni təşəkkül tapmasının fonunda, həm də mütərəqqi demokratik fikirli və milli ruhlu ziyalılar triadası yetişdirdi. Bu ziyalıların öz sözləri ilə ifadə etsək, əsas dərdləri cəhalət içərisində boğulan vətən əhlinin gözünü açıb onları maarifə, mədəniyyətə, elmə qovuşdurmaqdan ibarət idi. Milli oyanış hərəkatının ilk qaranquşları olan ziyalıları, təbii ki, həm də çarizmin milli və müstəmləkə zülmü düşündürürdü. Avropada baş verən inqilablardan və Rusiyada çarizmə qarşı başlanan mübarizələrdən ruhlanan Azərbaycan ziyalıları da liberal formada da olsa, monarxizmə qarşı çıxır, millət, din azadlığı ideyaları səsləndirir və beləliklə də, azad, milli cühuriyyətin ideoloji fəlsəfəsini yaradırdılar. Çox keçmədi ki, həmin dövr ziyalılarının şüarlarda əkdikləri toxumlar cücərti verdi, istiqlal hərəkatı cəmiyyətin daha çox təbəqələrini əhatə etdi və Şərqdə ilk demokratik Cümhuriyyət 1918-ci ilin mayında məhz Azərbaycanda quruldu.Azərbaycan Xalq Cümhuriyyətinin banisi Əli bəy Hüseynzadənin 1918-ci ilin may ayının 28-də öz təsdiqini tapan və arzuladığı dövlətin təşəkkülündə iştirakı barəsində xeyli faktiki materiallar mövcuddur. Siyasi türkçülüyü sistem halına salan, Türkləşmək, islamlaşmaq, avropalaşmaq düsturunun müəllifi Əli bəy Hüseynzadə yeni dünya düzənində tək Azərbaycan deyil, Rusiya əsarətində olan türklərin dövlət qurmaq imkanlarının nəzəriyyəsinin də müəllifidir. (Sultanlı, s.139) Düzdür, bu Cümhuriyyətin ömrü az oldu, birinci respublika cəmi 23 ay yaşadı. Lakin Azərbaycan Demokratik Cümhuriyyərinin böyük mənası ilk növbədə ondan ibarət idi ki, insanlar artıq istiqlal şirinliyini dadmışlar, onlarda milli özünüdərk, özünütəsdiq şüuru yaranmışdı. Təsadüfü deyil ki, 70 il hökm sürən totalitar bir rejim belə xalqımızın gen yaddaşından azadlıq düşüncələrini silib apara bilmədi və XX əsrin sonlarında Azərbaycan yenidən müstəqilliyə qovuşmağa nail oldu.

Azərbaycanda XX əsrin əvvələrində təqiblərə və şəxsi məhrumiyyətlərə baxmayaraq, cəhalət içində boğulan Vətən övladlarının gözünü açmağa çalışan, qabaqcıl ideyaları, mütərəqqi fəlsəfi görüşləri ilə milli istiqlal hərəkatının əsasını qoyan, sonradan demokratik cümhüriyyətin qurulmasında fəal iştirak edən işıqlı Azərbaycan ziyalılarından biri də Əli bəy Hüseynzadədir.(1864-1940) Əli bəy Hüseynzadə milli mədəniyyət və ictimai-siyasi fikir tariximizdə təkcə dahi mütəfəkkir şəxsiyyət kimi deyil, eyni zamanda böyük maarifçi - pedaqoq - ziyalı, məşhur həkim-tibb professoru, rəssam, musiqişünas kimi də tanınmaqdadır. Müasirləri böyük Azərbaycan mütəfəkkiri, milli ideologiya səviyyəsində türkçülüyün “Ana Yasası” kimi dəyərləndirilən "türkləşmək, islamlaşmaq, avropalaşmaq (müasirləşmək)" triadasının yaradıcısı və ilk carçısı, milli bayrağımızdakı

rənglər simvolikasının müəllifi, türk dünyasında milli özünüdərkin və milli istiqlal düşüncəsinin mücahidi, XX əsr Azərbaycan ədəbiyyatında "Füyuzat" ədəbi məktəbinin banisi, ensiklopedik şəxsiyyət, böyük maarifçi-pedaqoq Əli bəy Hüseynzadənin (1864-1940) türklük, islamlıq, millət və Vətən qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək, onu "Qafqaz müsəlmanlarının atası", "Qafqazdakı türk balalarına türklüyünü bildirən, həsəb-nəsəbini (soykökünü) öyrədən", "rəsuli- həqq" ("haqq elçisi"), "irqin (türklərin) ən mükəmməl öndəri", "külli-müsəlman aləminin iftixarı", "türk xalqlarına kimliyini bildirən dahi", "bütün türk dünyasında peyğəmbər kimi üfüqlər açan", "ilk turançı", "dahi mütəfəkkir", "fövqəlbəşər", "qüzey günəşi", "bütün türk dünyasının mücahidi", "türkçülüyün babası (atası), "milliyyətçi və mütəfəkkir", "imanlı türkçü", "yazı ustadı" və s. bu kimi yüksək epitetlərlə öyür, təqdir edirdilər. Sözsüz, bütün bunlar səbəbsiz deyildi. Çünki bu böyük İNSAN, dahi fikir və söz adamı 76 illik şərəfli ziyalı ömrünün yarım əsrdən çoxunu yorulmadan, usanmadan bütövlükdə türklüyün inkişafına, o cümlədən Azərbaycan xalqının milli oyanış və özünüdərkinə, maarif və mədəniyyətinin yüksəlişinə, milli istiqlal mücadiləsinə, milli dövlətçiliyin formalaşdırılmasına həsr etmişdi...

Bu mənada Əli bəyin müasiri olmuş, görkəmli tarixçi Yusif Akçuraoğlu haqlı olaraq yazırdı ki, əfsanəvi Əli bəy dünyanın bütün dillərini, elm və fənlərin hər növünü, ədəbiyyat və incəsənətin hər şöbəsini tamamən əhatə etmiş və tətbiqə müvəffəq olmuş fövqəlbəşər idi...

**2.Əli bəy Hüseynzadə yaradıcılığı**

Sovet siyasi rejimi daxilində milli mədəniyyətə, ədəbiyyata, ümumiyyətlə, mənəvi sərvətlərə sinfi münasibətin nəticəsində bir çox imzalar qadağan olunmuş, adlarının unutdurulmasına çalışılmışdır. Ancaq son illərdə Əli bəy Hüseynzadənin yaradıcılığına qayıdılışa imkan yaradılmış, bu böyük şəxsiyyətin bioqrafiyası və elmi-nəzəri görüşləri istiqamətində müxtəlif araşdırmalar aparılmışdır. Əli bəy Hüseynzadə irsinin öyrənilməsini aktuallaşdıran ictimai-siyasi ideyaları ilə yanaşı, onun ədəbi-estetik araşdırmaları, özünəməxsus üslubudur. XX əsrin əvvəllərində islamçılığın və türkçülüyün, xüsusilə siyasi türkçülüyün ən böyük mübariz insanlarından biri olan Əli bəy Hüseynzadənin mürəkkəb həyatı, zəngin yaradıcılığı Türk dünyasında dərin elmi araşdırmaların mövzusudur. Azrbaycanda Əli bəy Hüseynzadənin irsinin tədqiqi ilə bağlı filologiya elmləri namizədi Ofeliya Bayramlının “Siyasəti-fürusət”(1994), “Qırmızı qaranlıqlar içində yaşıl işıqlar”(1997), “Qərbin iki dastanında türk” (1998) əsərləri, Türkiyədə mərhum prof.dr. Əli Heydər Bayatın “Əli bəy Hüseynzadə” adlı araşdırması diqqətəlayiqdir. (Sultanlı, s.138)

Böyük siyasi xadim maraqlı və bənzərsiz bir ömür yolu keçmişdir. Əli bəy Hüseynzadə irsinin araşdırıcılarından olan Əziz Mirəhmədov onun

yaradıcılığnın belə qiymətləndirir: "Şeirlər,povestlər, elmi, ədəbi-tənqidi, siyasi-publisist, biblioqrafik məqalələr, polemik yazılar, elmi-tarixi oçerklər, iqtibas və tərcümələr, beynəlxalq icmalar, xəbərlər, mətbuat xülasələri-onun əsərlərini yazdığı əsas janrlar bunlar idi. Yaradıcılıq metodu cəhətdən romantik olsa da, dövrün simvolizm, dekadentizm, impressionizm kimi dəbdə olan metod və üslublarına yad deyildi. [Sultanlı, s.141]

Ədibin əsərlərinin təhlili göstərir ki, o hər şeydən əvvəl mənsub olduğu xalqa kim olduğunu başa salmağa çalışır, ardıcıl olaraq bu istiqamətdə yazılar nəşr etdirdi. "Türklər kimdir və kimlərdən ibarətdir", "Türk dilinin vəzifeyi-mədəniyyəsi", "Yazımız, dilimiz, ikinci İlimiz" , "İntiqad ediyoruz, intiqad olunuyoruz" və digər digər yazılarında o türkçülüyün nəzəri əsaslarını hazırlamışdır. Əli bəy Hüseynzadə millət və din təəsübkeşi idi, onun yaradıcılığında milli-dini dəyərlərə çağırış qırmızı xətlə keçir desək, əsl həqiqəti ifadə etmiş olarıq. Əli bəy Hüseynzadə Vətən övladlarının tərəqqi etməsini - avropalaşmasını (müasirləşməsini) arzulayırdı, Əli bəy Hüseynzadəyə məxsus "türk millətindənəm, islam hümmətindənəm, Batı mədəniyyətindənəm, "türk qanlı, islam imanlı, firəng qiyafəli", "Türkləşdirmək, islamlaşdırmaq, avropalılaşdırmaq" formulu bu fikri bir daha təsdiqləyir. Əli bəy həm də o ideyanı təbliğ edirdi ki, insan bir fərd kimi tərəqqi edəndə, elmə müasir dəyərlərə qovuşanda milli və dini mənsubiyyətinə daha möhkəm tellərlə bağlanmalıdır. İslamçılığın və türkçülüyün, xüsusilə siyasi türkçülüyün ən böyük böyük mübariz insanlarından olan Əli bəy Hüseynzadə hələ 1905-ci ildə rus inqilabından öncə turançılığı təbliğ etmişdi. "Tutduğumuz yol -türklük, müsəlmanlıq və avropalılıqdır.Türk hissiyatı ilə mütəhəssis, islam dili ilə mütədəyyin Avropa mədəniyyəti ilə mütəməddin olmaqdır"-deyən ədib qədim, şanlı cahangorlik tarixinə, zəngin mədəniyyətə malik olan türk xalqlarının bu güm geridə qalmasının, səbəblərini açıqlamağa çalışır, tərəqqi yollarını axtarırdı. Onun türkləşmək şüurunun arxasında da məhz bu məqsədlər dayanırdı. [Sultanlı, s.143]

Onun yaradıcılığının Azərbaycan dövründəki (1905-1910) iki istiqaməti var idi:

1.Mütərəqqiruhlu islamçılıq və türkçülük yaxud da "islamlaşmaq", "türkləşmək", "avropalaşmaq" kimi qeyd edilən "üçlü düsturu"; və

2."Osmanlı türkçülüyü", "Osmanlı islamçılığı" ideyalarını fərqləndirmək lazım gəlir. [Ələkbərli, s.200]

Əli bəy Hüseynzadə yaradıcılığında müsəlmanlar üçün qoyulmuş hüquq məhdudiyyətlərinə dönə-dönə qayıdıb soydaşlarının ağır problemlərini düşünən görkəmli mütəfəkkir belə vəziyyətindən çıxmağın yollarını və vasitələrini də izah edirdi. Onun yazılarının birində qeyd olunur: "Köhnə dəyərləri nəzərdən keçirilib dəyişdirməyə başlamağın tarixi anı Rusiya

müsəlmanları üçün də gəlib çatmışdır...” Biz gərək işləyək öz qayğımıza özümüz qalaq, öz ehtiyaclarımız barədə danışaq. Ləngimədən yeni həyatda sayımıza və birliyimizə uyğun yer tutaq.” Xalqımıza yeni həyatda layiqli yer tutmağa arzulayan Əli bə Hüseynzadə bunun üçün ləngimədən laqeyidliyi, süstlüyü, çəkişmələri, şəxsi ədavəti bir kənara atmağı, hər yerdə və hər şeydə ağıla, işgüzarlığa, biliyə, şərəfə üstünlük verməyi, qohumbazlıqdan, şəxsi ədavətdən uzaq durmağı tövsiyə edirdi.

**3.Üçlü düstur**

Azərbaycanda Mirzə Fətəli Axundzadə tərəfindən başlanan Avropa mədəniyyətinə inteqrasiya məsələləri Əli bəy Hüseynzadə ilə davam etdirilərək, onun yaradıcılığında önəmli yer tuturdu. Qərbləşmə hərəkatı çağdaş ədəbi-mədəni həyatımızda, düşüncə sistemimizin inkişafında son dərəcə faydalıdır. Məmləkətin müasirləşməsini arzulayan Əli bəy Hüseynzadə, eyni zamanda xalqının təmsilçilərini milli və dini dəyərləri qorumağa çağırırdı: *“Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, elm və maariflərinə, kəşfiyyat və ixtiralarına müraciət etmək istəyirik ki, islam ölkəsinə onların beyinləri girsin, boğazları, mədələri girməsin. Biz istəyirik ki, ölkəmiz onların beyinlərini həzm etsin, yoxsa mədələrində həzm olunmasın...”*

Əli bəy Hüseynzadənin qəlbində Vətən, millət, din sevgisi nə qədər böyük idisə, onun milliliyi əsla bəşəriliyin və insanlığın fövqündə dayanmırdı. O, bəşəri humanizmdən xali olan millətçiliyi şovinizm kimi dəyərləndirirdi. Əli bəy Hüseynzadə qənatinə görə, bəşəri dəyərlərdən, humanizmdən məhrum olan millətçilik, “ermənisayaq millilikdir”. Görkəmli filosof müşahidələrindən çıxış edərək erməniliyi hər cür humanizm və insanpərvərlik çərçivəsində kənara mütləqləşən ifrat bir anomaliya kimi səciyyələndirir. (Sultanlı) Əli bəy Hüseynzadə tez-tez qərbləşmək ideyasından çıxış etsə də, onun qərbləşmə düşüncəsi milli-mədəni özünəməxsusluğun, milli-mənəvi dəyərlərin qorunub saxlanılması şərtilə dünya mədəniyyətinə qovuşmağın mümkünlüyü ilə gerçəkləşə bilərdi.

**4.Türkçülük ideyası**

Bütün varlığı ilə xalqının milli-mənəvi dəyərlərinə bağlı olan Əli bəy Hüseynzadəni düşündürən milli problemlərdən biri də dil məsələsi idi. Onun yaradıcılığında ana dilimizin saflığının keşiyində dayanan milli ruhlu ziyalı mövqeyi aydın görünür. Əli bəy tərəqqinin açarını bütün türk dümyasının sözüm həqiqi mənasında ittihadında görürdü. Ona görə də ədib həm də dil birliyi şüarənı irəli sürür, ümumtürk ədəbi dilinin formalaşmasına tərəfdar çıxırdı. Dil məsələlərində Əli bəy Hüseynzadənin özünün baxışları vardır ki, bu yanaşma sistemi ümumtürk ədəbi dil konsepsiyasına əsaslanırdı. Azərbaycanda ümumtürk ədəbi dil konsepsiyasını ortaya qoyan, bu ideyanı praktiki baxımdan öz əsərlərində işlədən və müdafiə edən Əli bəy

Hüseynzadə idi. Təsadüfi deyildi ki, ümumtürk dil birliyinin ideoloqu olan "Tərcüman"ın baş redaktoru İsmayıl bəy Qaspıralı "Həyat" qəzetini "Tərcüman"ın varisi hesab edirdi. İsmayıl bəy Qaspıralı kimi Əli bəy Hüseynzadə də hesab edirdi ki, bütün türklər vahid millətdir və buna görə də vahid dilə, yazı mədəniyyətinə malik olmalıdırlar. Başqa sözlə, türk xalqlarının milli-mənəvi birliyinə nail olmaq üçün Əli bəy Hüseynzadə ümumtürk ədəbi dilin qaydalarının işlənib hazırlanması və orta məktəblərdə, mətbuatda işlənməsini vacib hesab edirdi. Ortaq türk dili ideyası ilə bağlı polemika XX əsron əvvəllərində daha da güclənmişdi. Əli bəy Hüseynzadəyə görə, ədəbi dil millətin mövcud olması və yaşaması üçün vacib şərtlərdən biri idi. O, fikrini əsaslandıraraq yazırdı: "*Ədəbi dilə malik olmayan qövm müstəqil qövm surətində çox yazmaz. Ədəbi dili olmayan qövm yaşamaq və dünya məişətini keçirmək üçün özündən mədəniyyətli, ədəbi dili olan bir qövmün dilini itxaz etməyə məcburdur*".

Ortaq türk coğrafiyası, ortaq türk birliyi Əli bəy Hüseynzadənin və onun yaradıcılarından biri olduğu "Füyuzatçılar" hərəkatının üzvlərinin uğrunda mübarizə apardıqları məsələlərdən biri də, ortaq türk dili, ortaq türk mədəniyyəti məsələsi idi.Əli bəy Hüseynzadə də İsmayıl bəy Qaspıralı kimi dünyada yaşayan türklərin ortaq dilini, imperiyaa dili məqamına yüksəliş Osmanlı türkcəsi olmasını qəbul edirdi. Məhəmməd Hadi 1906-cı ilin 20 yanvar sayında dərc etdirdiyi məqaləsində bu mövqeyi açıq şəkildə müdafiə etmişdi: Başqalarını bilmirəm, zənnimə qalırsa, özgə işvə arayanlar yorulub peşman olacaqlar. Mübahisəsiz, münaqişəsiz Osmanlı dilini qəbul edəlim, çayi-tərəddüd deyil bu yer. Əli bəy Hüseynzadə böyük Turan coğrafiyasında ortaq din, dil, mədəniyyət ideyasını irəli sürürdü. O, türk etnoslarının məskunlaşdıqları arealda onların ortaq dəyərlərinin qorunub saxlanmasının, türklərin inkişafının məhz ortaq dəyər əsasında təmin olunmasının zəruriliyini əsaslandırmağa çalışırdı. Onun təbliğ etdiyi formul belə idi: "İttihadi insan, ittihadi din, ittihadi kültür. O yazırdı ki, "bizim üşün islam xaricində nicat yoxdur."İslamın ciddi islahatlara ehtiyacı olduğunu qryd edən Əli bəy Hüseynzadə "Qurani-Kərimin" dilimizə tərcüməsi məsələsini qaldırır ki, bu da o dövr üçün olduqca cəsarətli addım idi. (Əhmədli)

Azərbaycandakı fəaliyyətinin ən qaynar çağlarında Əli bəy Hüseynzadənin ortaq türkcəyə söykənən ədəbi dil siyasətini tənqid edən Firudin bəy Köçərli: «kaş o alicənab İs tan bulda rahat əyləşib bizim şumbəxt Qafqaza təşrif gətirməyə idi», - deyə təəssüflə bildirirdi. Lakin zamanın arxasından çevrilib həmin il lərə nəzər salanda bu gün Əli bəy Hüseynzadənin vətəni tərk edə rək mühacirətə getməsinin Azərbaycan türklərinin tarixi yad daşında yeri heç bir zaman dol durula bilinməyəcək böyük uçu rum yaratdığını görməmək mümkün deyildir.

Əli bəy Hüseynzadənin Azərbaycanda olduğu dönəmdə türklərin etnoqrafiyasına, mədəniyyətinə, dilinə, qədim dini-fəlsəfi təlimlərinə ümumilikdə türk tarixinə həsr etdiyi yazılarında türklüyü və islamlığı bir-birindən fərqləndirməsi əksini tapmışdır. Ədib türklərin dünya tarixində və mədəniyyətindəki rolunu yaxşı bilir və həmin ənənələrin yenidən dirçələcəyinə inanırdı: Çəkilin ortadan! Mədəniyyət gəlir, Təbriz mücahidlərinin, Səttarxanların qalibiyyəti ilə gəlir.” [Ələkbərli, s.201]

Onun qəlbində bir türk sevgisi yaşadırdı. Əli bəy Hüseynzadə “Həyat” qəzetinin 4-cü sayında (10 iyun 1905) “Türklər kimdir və kimlərdən ibarətdir” adlı məşhur məqaləsində yazırdı... Tariximizə və keçmişimizdəki milliyyətimizə dair həqiqətləri üzə çıxarmaq üçün ilk növbədə özümüzü tanımalıyıq. Yəni türklərin kim olduğunu və kimdən ibarət olduğunu, haradan gəldiyini, neçə qola bölündüyünü, bu gün harada yaşadıqlarını, haradan gəldiklərini, hansı adlar altında yaşadıqlarını göstərməliyik. Aramızda özbəklərin, qırğızların, başqırdların türk olduğunu bilməyənlər vardır... Türk olmaqdan qürur duysalar da, türkün kim olduğunu, kimdən ibarət olduğunu bilməyən yazarlar çoxdur. [Bayat, s.33]

Əli bəy Hüseynzadə qardaş Türkiyəyə olan rəğmətini Abdulla Cövdət bəyə belə izah edib: “Mən türkəm, müsəlmanam. Türkiyə bir türk və müsəlman hökümətidir. Bu hissiyyatla hər digər vətəndən daha ziyadə vətənimdir. Bu vətəndaşları, bu vətəni tanımalıyam”.

Görkəmli mütəfəkkirin aşağıdakı kəlamında onun varlığındakı böyük türk sevgisi daha aydın ifadə olunub. “Türklər ya ölər, ya da hicrət edərlər, fəqət qul olmazlar”.

Məlumdur ki, hazırda türkdilli ölkələr arasında qarşılıqlı inteqrasiya prosesi mövcuddur. Eyni kökün, oxşar mədəniyyətlərin daşıyıcısı olan türk dövlətlərinin ortaq parlamenti, digər siyasi, iqtisadi, mədəni təşkilatları yaradılır, telekörpulər təşkil olunur. Bütün bunlar Əli bəy Hüseynzadənin hələ bir əsr bundan əvvəl irəli sürdüyü ortaq türk coğrafiyası-ortaq türk birliyi ideyasının bu gün də aktual məna daşıdığına göstərir. Onun üçün bütün Türk dünyasının inkişafı mühüm prioritet idi: *“Biz həm də türkük, ona görə də, bütün türklərin inkişafına, tərəqqisinə və xoşbəxtliyinə ümid etmək istəyirik”*.

Əli bəy Hüseynzadə redaktoru olduğu “Həyat” qəzetində çalışdığı “Füyuzat” jurnalında oçerklər şəklində dərc etdirdiyi “Siyasəti-Fürsət”ədəbi-fəlsəfi traktatında və digər əsərlərində türkçülyü və turançılığı geniş təbliğ edib. Siyasəti-fürusət” çilik-çilik edilmiş billur kimliyimizin tarix, sənət, fəlsəfə və ədəbiyyat üsulu ilə yenidən bərpasıdır [Turan, s.148] Əli bəy Hüseynzadənin Azərbaycan mətbuatının inkişa fında əvəzsiz xid mətləri olmuşdur. O özünün bu sahədəki fəaliy yəti ilə milli mətbuat tari xində füyuzatçılıq mək təbinin əsasını qoymuşdur. Böyük mütəfəkkirin şərti-metaforik üslubda qələmə aldığı «Siyasəti-fürusət» əsəri onun yaradıcılığında

xüsusi yer tutur. Bu siyasi pamfletdə çarın baş naziri Purişkeviçin kölgəsinin İrana səyahəti fonunda Azərbaycan, Şərq və ümumən dünya tarixinin, mədəniyyətinin və ədəbiyyatının bir sıra məqamlarına işıq tutulmuşdur (Sultanlı). Əli bəy Hüseynzadənin Azərbaycan mətbuatının inkişafında əvəzsiz xidmətləri olmuşdur. O, özünün bu sahədəki fəaliyyəti ilə milli mətbuat tarixində füyuzatçılıq mək təbinin əsasını qoymuşdur. Böyük mütəfəkkirin şərti-metaforik üslubda qələmə aldığı Siyasəti-fürusət» əsəri onun yaradıcılığında xüsusi yer tutur. Bu siyasi pamfletdə çarın baş naziri Purişkeviçin kölgə sinin İrana səyahəti fonunda Azərbaycan, Şərq və ümumən dün ya tarixinin, mədəniyyətinin və ədəbiyyatının bir sıra məqam larına işıq tutulmuşdur. «Qərbin iki dastanında türk» əsərinin ayrı-ayrı ricətlərində dolayısı ilə Əli bəyin siyasi amalı öz ifadəsini tapmışdır. Məsələn, portəgizlərin Mombas ölkəsini işğal etməsilə bağlı ricət lərdə Azərbaycanın Rusiya tərəfi ndən işğalına işarə olunduğu şübhə doğurmur. Azərbaycandakı fəaliyyətinin ən qaynar çağlarında Əli bəy Hüseynzadənin ortaq türkcəyə söykənən ədəbi dil siya sətini tənqid edən Firudin bəy Köçərli: «kaş o alicənab İstanbulda rahat əyləşib bizim şumbəxt Qafqaza təşrif gətirməyə idi», - deyə təəssüflə bildirirdi. Lakin zamanın arxasından çevrilib həmin il lərə nəzər salanda bu gün Əli bəy Hüseynzadənin vətəni tərk edə rək mühacirətə getməsinin Azərbaycan türklərinin tarixi yad daşında yeri heç bir zaman dol durula bi linməyəcək böyük uçurum yaratdığını gör məmək mü kün deyildir. [Sultanlı, s.144]

Əli bəy Hüseynzadənin də ədəbi-tənqidi fikirləri əksər hallarda müxtəlif mövzularda qələmə alınmış elmi-publisistik səp kili əsərlərində əksini tapmışdır.

Müəllifin «Molla Nəsrəddin» və «Dəbistan» dərgilərinə həsr etdiyi məqalədə müqayisəli şəkildə bu nəşrlərin məzmunu və ideya istiqaməti haqqında bəhs olunur, millətin oyanışında oynadığı rol səciyyələndirilir [Hüseynzadə, s.115-117].

Ədibin «Şiller» adlı məqaləsində bir tərəfdən böyük alman dramaturqunun yaradıcılığı təhlil olunmuş, qarşı tərəfdən Azərbaycan dramaturgiyası və teatrı ilə bağlı dəyərli fikir və mülahizələr söylənilmişdir. Əli bəy Hüseynzadə «Tolstoyçuluq nədir» adlı məqaləsin də böyük rus ədibi L.N.Tolstoyun yaradıcılığını üç mərhələyə bölərək onu Firdovsi, Sənai və Sədi ilə müqayisəli şəkildə təhlilə çəkmişdir. Tənqidçi yazıçının böyüklüyünü xalqın fikrini ay dınlatmasında, əxlaqını yaxşılaşdırmasında, hərbə qarşı çıxmasında ,sülh, barışıq və birlik tərəfdarı olmasında görmüş və onu bu yöndən dəyərləndirmişdir [Hüseynzadə, s.164-175].

Elm, maarif fədaisi Əli bəy Hüseynzadənin xalqın maariflənməsinə, təhsillə tərəqqiyə çatmasına böyük önəm verməsi onun uzaqgörənliyindən xəbər verir. XX əsri "elm və bilik əsri" hesab edən böyük mütəfəkkir millətimizin,

elmlə, maariflə, təhsillə inkişaf edəcəyinə (parlaycağına) böyük ümid bəsləyirdi. Sözün əsl mənasında elm və maarif fədaisi Əli bəy Hüseynzadə inanırdı ki, xalqın nicati biliklərə yiyələnməsidir, milli istiqlala gedən yol xalqın maariflənməsindən, elmdən, təhsildən keçir.

Böyük elm və maarif fədaisi Əli bəy Hüseynzadə maarifi, ittihadı (milli birlik), hürriyyəti (azadlıq) “nə qədər gözəl nemətlər” adlanıdıraraq bunları unutmamağı tövsiyyə edirdi: Çünki əsl nicat bu üç qüvvədədir. Əli bəy Hüseynzadə türk dünyasının tərəqqisinin atributlarından birini də müasirləşməkdə görürdü. O, müasir ləşməy, avropalılaşmağı zahiri mənada anlayanlara: «Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, ülum və maariflərinə, kəşfiyyat vəixtiralarına müraciət etmək istiyoruz»,- deyə etirazını bildirirdi. Əli bəy Hüseynzadə diqqəti ümumibəşəri dəyərlərin milli təkamüldə istifadə olunmasının zəruriliyinə yönəldirdi. Böyük mütəfəkkir yeni dövrdə türk xalqlarının qarşısında duran əsas vəzifələrdən bəhs edərək yazırdı. “Türk xalqları birinci dövrdə qılıncla, ikinci dövrdə dinlə parlamışdırsa, indi isə yəni 3-cü dövrdə (XX əsrdə) elm və biliklə parlamalıdırlar... Bizə qılənc deyil, əhli-maarif lazımdır. Bizim özümüzə məxsus daha layiq, daha şanslı bir vəzifeyi-mücahidəmiz vardır ki, o vəzifə də zülməti-qəflətdə bulunan külliyyəti-avam arasında nuri-maarif əkməkdir...” Əli bəy Hüseynzadə yeni dövrdə milli ziyalılar ordusunun qarşısında duran ümdə vəzifələrdən yazırdı.

Azərbaycanın milli təhsil və pedaqoji fikir tarixinə də dəyərli töhfələr vermiş bu böyük mütəfəkkirin maarifçilik görüşlərində millətin tərəqqi və oyanışında, mədəni yüksəlişində maarifin, təhsilin, elm və mədəniyyətin müstəsna roluna, milli istiqlala aparan yolun məhz xalqın maariflənməsindən keçməsinə və bu yolda ana dilində tədrisin təməl prinsip olmasına, ümumbəşəri dəyərlərdən milli təkamül və inkişafda istifadənin əsas şərtlərinə dair müdrik fikirlərindən bir neçəsini xatırlatmaq yerinə düşərdi.

l "Türk xalqları birinci dövrdə qılıncla (Hun imperatorluğu dövrü nəzərdə tutulur - Ə.Q.), ikinci dövrdə dinlə (Osmanlı imperatorluğu dövrü - Ə.Q.) parlamışdırsa, indi isə, yəni üçüncü dövrdə (XX əsrdə) elm və biliklə parlamalıdırlar...", "Bizə qılınc deyil, əhli-maarif lazımdır...";

l "Maarif, ittihad (milli birlik ), hürriyyət (azadlıq) ! Nə qədər gözəl nemətlər! Bunları unutmayalım! Çünki əsl nicat bu üç qüvvətdədir...";

l "Bizim özümüzə məxsus daha layiq, daha şanlı bir vəzifeyi-mücahidəmiz vardır ki, o vəzifə də zülməti-qəflətdə bulunan külliyyəti-avam arasında nuri-maarifi əkməkdir...";

l "Bilgi... və elm lisan (dil ) ilə olur. Bir əcnəbi lisanında dəxi elm təhsil oluna bilər.Fəqət bu surətlə təhsil olunan elm məhdud fərdlərin beynində qalır. Millətin əksəriyyəti arasında yayılmır. Elm və maarif əksəriyyət

beynində inkişaf etmək üçün lazımdır ki, millətin öz ana dili maarif təhsilinə alət (vasitə) olsun...";

l "Avropa elminə, maarifinə, ədəbiyyatına, sənət və sənayesinə bələd olmağa (öyrənməyə) və millətimiz beynində yaymağa çalışmalıyız...";

l "Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, elm və maariflərinə, kəşfiyyat və ixtiralarına müraciət etmək istəyirik,, özlərinə deyil! Biz istəyirik ki, islam ölkəsinə onların beyinləri girsin, boğazları, mədələri girməsin. Biz istərik ki, ölkəmiz onların beyinlərini həzm etsin, yoxsa mədələrində həzm olunmasın... "

Əli bəy Hüseynzadə XIX əsrin sonu - XX əsrin əvvəllərində türk-islam dünyasının yetirdiyi nadir şəxsiyyət, dahi mütəfəkkir, bənzərsiz fikir adamı, böyük maarifçi və ictimai xadim idi... Onun haqq dünyasına qovuşmasından 74 il ötsə də, o, əsərlərində, əməllərində, parlaq ideyalarında bu gün də yaşayır. Bu böyük İnsanın adının əbədiləşdirilməsi istiqamətində müstəqil Azərbaycanda dövlət tərəfindən müəyyən addımlar atılıb, doğulduğu Salyan şəhərində şərəfinə heykəli ucaldılıb, küçələrə, məktəblərə adı verilib. Əsərləri çap edilib, haqqında araşdırmalar aparılıb. Ən başlıcası təmiz adı özünə qaytarılıb, böyük ideyaları həyata keçirilib. Hesab edirik ki, necə ki, müstəqil Azərbaycanın üçrəngli bayrağı var, həmin bayrağın rənglər simvolikasının müəllifi Əli bəy Hüseynzadə də var olacaqdır...

**5.Nəticə**

Əlibəy Hüseynzadə (1864-1940) müasir Azərbaycan ictimai-fəlsəfi fikrinin və milli düşüncənin formalaşmasında əhəmiyyətli bir rol oynamış ziyalılardan biridir. Onun fəaliyyəti XIX əsrin sonu və XX əsrin əvvəllərinə təsadüf edir və bu dövr Azərbaycan cəmiyyətində milli oyanışın, milli kimlik və ideologiyanın axtarışında olduğu bir mərhələ idi. Əlibəy Hüseynzadə, Azərbaycan xalqının milli özünüdərkini və müasir dünya ilə inteqrasiyasını birləşdirən bir ideoloq kimi çıxış edirdi. Əlibəy Hüseynzadə Azərbaycan millətçiliyinin formalaşmasında önəmli rol oynayan ziyalılardan biri idi. O, "Türkləşmək, İslamlaşmaq və Müasirləşmək" prinsipini irəli sürərək, bu istiqamətdə milli ideologiyanı formalaşdırmağa çalışmışdır. Onun fikrincə, Azərbaycan xalqı öz milli kimliyini qoruyaraq, eyni zamanda İslam dininə sadiq qalmalı və müasir dünyaya inteqrasiya etməli idi. Bu üçlük millətin həm mədəniyyətini, həm dini dəyərlərini, həm də modern düşüncəsini əhatə edən bir yanaşma idi. Əlibəy Hüseynzadənin fikirlərində dinin və dünyəviliyin ahəngdar bir şəkildə birləşməsi mühüm yer tuturdu. O, İslamı milli kimliyin mühüm tərkib hissəsi kimi görsə də, cəmiyyəti müasir dünyaya uyğunlaşdırmağı vacib sayırdı. Onun fəlsəfəsi cəmiyyəti həm dini dəyərlərə bağlı, həm də dünyəvi inkişafla ayaqlaşan bir istiqamətə yönləndirməyə çalışırdı. Ə.Hüseynzadə müasirləşmə ideyalarını geniş şəkildə təbliğ edirdi və Azərbaycan xalqının təhsilə və elmə yönəlməsini təşviq edirdi. O,

maarifçiliyin cəmiyyətin inkişafı üçün əsas şərtlərdən biri olduğunu hesab edirdi və Azərbaycan ziyalılarını Avropa elmi və texnologiyalarını öyrənməyə çağırırdı. Ə.Hüseynzadə yalnız fəlsəfi və ideoloji fikirlərlə məhdudlaşmırdı, o, həm də siyasi fəaliyyətlə məşğul olurdu. O, "Həyat", "Füyuzat" kimi qəzet və jurnallarda məqalələr yazaraq Azərbaycan xalqının milli özünüdərkinə və ictimai şüurun inkişafına böyük töhfələr verib. Onun bu yazıları həm siyasi maarifçilik, həm də ictimai fəlsəfə sahəsində Azərbaycan ictimaiyyətinin milli-ideoloji inkişafında əhəmiyyətli iz qoymuşdur. Hüseynzadənin müasir Azərbaycan fəlsəfi fikrində rolu, irəli sürdüyü ideyalar müasir Azərbaycan fəlsəfi və ictimai düşüncəsində böyük bir iz buraxmışdır. Onun "Türkləşmək, İslamlaşmaq və Müasirləşmək" formulu Azərbaycan milli kimliyinin əsasını təşkil edən dəyərlərin birləşməsinə yönəlmiş bir doktrina kimi hələ də öz aktuallığını qoruyub saxlayır. Azərbaycanın müasir intellektual dairələri onun irsini tədqiq edir və Hüseynzadənin ideyaları üzərində yeni fəlsəfi və ictimai konsepsiyalar yaradırlar. Ə.Hüseynzadənin türk dünyası tarixinə verdiyi xidmətləri sadalamaqla bitməz. Danılmaz bir faktdır ki, türk millətinin oyanmasına və mədəniyyətinin irəliləyib yayılmasına bütün ömrünü vermiş Əli bəy özündən sonra zəngin elmi, bədii, publisistik irs qoyub gedib. Əli bəy Hüseynzadənin şəxsiyyəti və yaradıcılıq yolu Azərbaycandan kənarda da yüksək qiymətləndirilmişdir. Türkiyədə onun irsini araşdıranlar sırasında Yusif Akcura, Ziya Göyalp, Məhəmməd Fuad Köprülüzadə, Hilmi Ziya Ülgen, Nihat Sami Banarlı, İsmayıl Hikmət Ertaylan, Abdullah Cövdət, Məhəmməd Əmin Rəsulzadə, Əbdülvahab Yurdsevər, Mirzəbala Məhəmmədzadə, Əhməd Cəfəroğlu, Hüseyn Baykara, Mehmet Əli Tevfiq, Əli Yavuz Akpınar, Ali Heydar Bayat və başqalarının adını çəkmək olar.

## ƏDƏBİYYAT

1. Azər, T. (2014). *Əli bəy Hüseynzadə*. Bakı: Letterpress, 541 s.
2. Bayat, A. H. (1992). *Azerbaycanın yiğit evladı Ali bey Hüseynzade (Prof. Dr. Hüseyinzade Ali Turan ve Türkiyede yayınladığı eserleri)*. İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, 190 s.
3. Ələkbərli, F. (2018). Əli bə Hüseynzadənin dünyagörüşündə türkçülyün və islamçılığın nəzəri-fəlsəfi əsasları. *Din Araşdırmaları Jurnalı*, Bakı, 199-212.
4. Hüseynzadə, Ə. B. (2007). *Seçilmiş əsərləri*. Bakı: Şərq-Qərb, 480s.
5. Sultanlı, V. (2019). *Azərbaycan ədəbi tənqidi*. Bakı: Nurlar, 312 s.
6. Vəliyev, Ş. (2009). *"Füyuzat" ədəbi məktəbi* (təkrar nəşr). Bakı: Elm və Təhsil, 456 s., s.26

**7.** Əhmədli, B. (2017). *Azərbaycan mühacirət ədəbiyyatı: təşəkkülü, problemləri, şəxsiyyətləri*. Bakı: Elm və Təhsil, 376 s. ISBN 978-9952-8176-2-1.

## REFERENCES

**1.** Azer, T. (2014). *Ali bey Huseynzade*. Baku: Letterpress, 541 p. (in Azerbaijani)
**2.** Bayat, A. H. (1992). *Azerbaijan's Brave Son Ali bey Huseynzade (Prof. Dr. Huseynzade Ali Turan and His Works Published in Turkey)*. Istanbul: Turkish World Research Foundation, 190 p. (in Turkish)
**3.** Alekberli, F. (2018). The Theoretical-Philosophical Foundations of Turkism and Islamism in Ali bey Huseynzade's Worldview. *Journal of Religious Studies*, Baku, 199-212. (in Azerbaijani)
**4.** Huseynzade, A. B. (2007). *Selected Works*. Baku: East-West, 480 p. (in Azerbaijani)
**5.** Sultanli, V. (2019). *Azerbaijani Literary Criticism*. Baku: Nurlar, 312 p. (in Azerbaijani)
**6.** Valiyev, Sh. (2009). *The "Fuyuzat" Literary School (reprint)*. Baku: Science and Education, 456 p., p. 26. (in Azerbaijani)
**7.** Ahmedli, B. (2017). *Azerbaijani Exile Literature: Formation, Problems, Figures*. Baku: Science and Education, 376 p. ISBN 978-9952-8176-2-1. (in Azerbaijani)